

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 166 (23.328)

*6 sentyabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakıda “Şimal-2” elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev, Yaponiyanın Xarici İşlər nazirinin parlamentar müavini Kenji Yamada, Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori dövlətimizin başçısına burada görülən işlər barədə məlumat veriblər.

Qeyd edək ki, 1998-ci ildə ulu öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq “Şimal-1” Elektrik Stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb olunmasına nail olub. Beləliklə, 2000-ci ildə əsası qoyulan 400 meqavatlıq “Şimal-1” stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq “Şimal-2” Elektrik Stansiyasının təməli qoyulub. Ötən ilin payızından başlayaraq “Şimal-2” Elektrik Stansiyasının tikinti və quraşdırma prosesləri sürətləndirilərək 2019-cu ildə işlər tamamlanıb.

Prezident İlham Əliyev “Şimal-2” Elektrik Stansiyasını işə salıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də BP-nin Direktorlar Şurasının sədri Helqe Lundun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Naxçıvan şəhərindəki məscid kompleksinin inşası davam etdirilir





Naxçıvanın qədim dövlətçilik tarixi, zəngin mədəniyyəti və müasir inkişaf səviyyəsi İslam dəyərlərinə münasibətdə də özünü göstərir. Bu gün muxtar respublikanın inkişafında milli və mənəvi dəyərlərimizə qayıdış xüsusi yer tutur. Yeni məscidlər tikilir, dini-tarixi abidələr və ziyarətgahlar bərpa edilir. Hazırda Naxçıvan şəhərində yeni məscid kompleksinin inşası da bu sahədə görülən işlərin tərkib hissəsidir.

Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məscid kompleksində aparılan inşaat işləri ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 6400 kvadratmetr sahədə inşa olunan kompleksdə məscidlə yanaşı, Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura üçün inzibati bina və mərasim evi yerləşəcəkdir. Məscid binasının fasadında və daxilində işlər milli nəqqaşlıq elementləri və dini rəmzlər əsas götürülərək aparılır. İslam dəyərlərinə və Naxçıvan memarlıq üslubuna uyğun tərtibat verilir, pəncərələr şəbəkə formasında yığılır. Havalandırma, işıqlandırma və istilik sistemləri ilə təchiz olunacaq məscidin 40 metrlik iki minarəsində və 12 metrlik 15 günbəzində də son tamamlama işləri görülür. Məsciddə qadın və kişilər üçün ayrıca ibadət zalları, mədrəsə, həyətdə isə dəstəmaz yerləri istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri məscidin daxilində və fasadında işlərin keyfiyyətlə aparılması, xüsusilə mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı Katherine Marroya təqdim olunub



*AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 24 sentyabr tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif olunan Azərbaycan və Fransa beynəlxalq arxeoloji ekspedisiya layihəsinin rəhbəri Katherine Marroya nişanın təqdimetmə mərasimi keçirilib.*

Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbirdə çıxış edərək ölkəmizdə tarixi abidələrimizin, maddi mədəni irsimizin qorunması, tədqiqi və təbliği istiqamətində həyata keçirilən işlərdən danışıb. Bu sahədə ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini diqqətə çatdıran akademik müvafiq sərəncamlara əsasən yaradılan tarixi qoruqlardan, maddi mədəni irsimizin tədqiqi üçün ayrılan maliyyə vəsaitindən, abidələrin mühafizəsi və elmi araşdırmalar üçün mövcud imkanlardan danışıb. Vurğulayıb ki, tarixi abidələrimizin mühafizəsi və onların elmi araşdırmalara cəlb edilməsi dövlətimizin bu gün diqqət mərkəzində saxladığı məsələlərdəndir.

“Xalqımızın qədim dünyagörüşünün, mədəniyyətinin göstəricisi olan maddi mədəni abidələrimizə qayğı Naxçıvanda da uğurla davam etdirilir və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birbaşa nəzarətindədir”, – deyən İsmayıl Hacıyev muxtar respublikada bu istiqamətdə həyata keçirilən genişmiqyaslı tədbirləri diqqətə çatdırıb.

Bildirib ki, bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları 2006-cı ildən xarici ölkələrdən olan həmkarları ilə birgə Naxçıvan tarixinin müxtəlif dövr və problemlərinə dair tədqiqatlar aparırlar. Arxeoloq alimlər tarixi dəlillərə söykənərək yekdilliklə Naxçıvan ərazisinin bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən və ilkin şəhər mədəniyyətinin təşəkkül tapdığı yerlərdən biri olduğunu bildirirlər. Onların fikirlərinə görə, tarixi yaşayış məskəni kimi daha qədim olan Naxçıvan şəhər kimi 5 min il bundan əvvəl formalaşıb.

Akademik İsmayıl Hacıyev Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyasının fəaliyyətindən də bəhs edərək bildirib ki, ekspedisiyanın muxtar respublikanın bir neçə qədim yaşayış yerində apardığı tədqiqatlar nəticəsində Neolit, Eneolit və Tunc dövrlərinə aid I və II Kültəpə, Ovçulartəpəsi, Oğlanqala, Duzdağ, Uçan ağıl, Şorsu və digər abidələrdən qədim, orta və bugünkü tariximizin yazılması üçün əhəmiyyətli tarixi materiallar əldə edilib. Araşdırmaların nəticələri ilə bağlı çoxlu sayda kitab, monoqrafiya, albom-kitab, jurnal, buklet və elmi məqalələr çap edilib, məlumatlar kütləvi informasiya vasitələrində işıqlandırılıb.

Akademik İsmayıl Hacıyev “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanını Katherine Marroya təqdim edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Katherine Marro əməyinə göstərilən yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Mərasimdə AMEA-nın müxbir üzvləri Vəli Baxşəliyev və Fəxrəddin Səfərli çıxış edərək vurğulayıblar ki, bölmə əməkdaşları və arxeoloqlar daim öz üzərlərində dövlətin qayğısını hiss edirlər. Katherine Marronun “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif edilməsi bu qayğının növbəti təzahürüdür.

**Xəbərlər şöbəsi**

***Cari ilin mart ayından etibarən Şahbuz rayonunun Türkeş kəndində kompleks quruculuq işlərinə başlanılıb. Belə ki, yaşayış məntəqəsində kənd yolu əsaslı surətdə yenidən salınır, kənd və xidmət mərkəzləri inşa olunur.***

## Quruculuq tədbirləri davam edir





Kənd mərkəzi üçün tikilən ikimərtəbəli müasir binanın birinci mərtəbəsində poçt, avtomat-telefon stansiyası, kitabxana, tibb otağı, polis və baytarlıq xidməti fəaliyyət göstərəcək. İkinci mərtəbədə isə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, arxiv, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və klub yerləşəcək. Bununla da yaxın gələcəkdə kənd sakinlərinin hər hansı bir məsələni həll etmək üçün rayon mərkəzinə üz tutmasına ehtiyac qalmayacaq.

Xidmət mərkəzində isə kənd sakinlərinə müxtəlif məişət və ticarət xidmətləri göstəriləcək. Kənd sakinləri üçün yeni iş yerləri açılacaq. Burada bir neçə sakin işlə təmin ediləcək, ailə təsərrüfatları məhsullarının satışı təşkil olunacaq. Qeyd edək ki, hər iki quruculuq ünvanında əsas işlər yekunlaşıb, həyətində abadlıq işlərinə başlanılıb.

Kənd yolu da əsaslı şəkildə yenidən tikilir. İkizolaqlı yolun uzunluğu 4,2 kilometrdir. Yolda torpaq işləri görülüb, qum-çınqıl verilib, su keçidləri tikilib. Yol yatağı bərkidilib və digər tikinti işləri aparılıb.

**Hicran ƏLİYEVA**

***Son illər muxtar respublika iqtisadiyyatının dinamik inkişafı, tikilən yeni binalar, çəkilən yollar, bir sözlə, aparılan abadlıq və quruculuq işləri bütün bölgələrimizi əhatə edir. Babək rayonu da ötən 41 il ərzində böyük inkişaf yolu keçərək muxtar respublikamızın müasirləşən bölgələrindən birinə çevrilib. Rayon əhalisinin böyük əksəriyyətinin yaşadığı kənd yaşayış məntəqələri də Heydər Əliyev ideyaları işığında bu gün hərtərəfli inkişaf edir, yeni görkəm alır. Belə yaşayış məntəqələrindən biri də Çeşməbasar kəndidir.***

*Müasirləşən kəndlərimiz*

# İnkişaf edib abadlaşan yurd yerimiz – Çeşməbasar

Bu yaşayış məntəqəsi Naxçıvan-Ordubad avtomobil yolunun kənarında yerləşir. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırov öz araşdırmalarında qeyd edir ki, "Çeşməbasar" "saf su", "saf bulaq" mənasında işlənən toponimdir. Qədim tarixə malik Çeşməbasar kəndinin salınma tarixi dəqiq məlum deyil. XIX əsrə aid mənbələrdə toponimin "Çeşməsara" və "Çeşməbazar" variantlarına da rast gəlinir. Faktlar sübut edir ki, kənd tarixən mövcud olub, ancaq müxtəlif səbəblər üzündən bir neçə dəfə dağılıb, sonra burada həyat yenidən bərpa edilib. Kənd əhalisi bir müddət Araz kənarındakı keçmiş Yamxana kəndində məskən salıb, sonra öz kəndlərinə köçüb. Alim belə qənaətə gəlir ki, xalq etimologiyasına görə, Çeşməbasar "su basan yer" deməkdir. Mənbələrdə kəndin bulaq suyunun suvara bildiyi ərazidə yerləşdiyi üçün belə adlandırıldığı qeyd olunur. Digər tədqiqatçıların fikrincə isə, adın mənşəyi "çeşmə" (bulaq) və "basar" (ətraf ərazi) sözlərindən yaranıb, "bulaq ətrafı" mənasını verir. "Çeşməbasar" toponimi "bol, bolluq" anlamında işlənərək "saf su, saf bulaq, çoxlu çeşməsi, təmiz suyu olan yer" mənasını ifadə edir. Çeşməbasara yaxın ərazidə – Naxçıvanın 7 verstliyində dağ çayının axarı boyunca "Naxışnərgiz" adlı karbonat bulaqlara rast gəlinməsi və kənd ərazisindən bulağın çıxması bu adın yaranmasına səbəb olub...







Kəndin ağsaqqallarından Mövsüm Rzayevin Çeşməbasar kənd əhalisinin yaşayışı, adət-ənənələri haqqında söhbəti maraqlı oldu. Mövsüm Rzayev söhbətinə keçmişin qayğıları, bu günün sevincləri ilə başladı. O qeyd etdi ki, kənd sakinlərinin böyük bir qismi ya heyvandarlıqla, ya da ki, əkinçiliklə məşğul olaraq öz yaşayışlarını təmin edir. Əvvəllər yayılan müxtəlif xəstəliklərlə bağlı heyvanların tələf olması və bunun üçün heç bir profilaktik tədbirin görülməməsi, texnikanın çatışmazlığı və digər problemlər insanları təngə gətirmişdi. Mən həyatımın uzun illərini təhsilə sərf etmişəm. Yaxşı xatirimdədir, kəndimizin uçuq-sökük bir məktəbi vardı. Yağış yağanda sinif otaqlarını şagirdlərdən çox vedrələr bəzəyirdi. İstilik sistemləri, təbii qaz olmadığından sinif otaqlarında soyuq aylarda dərs keçmək xeyli çətinləşirdi. Ancaq, şükür ki, müstəqilliyimizin bəhrələrindən bizim kəndə də pay düşdü. İnsanların rahat yaşayışı üçün hər bir şərait yaradıldı. Yağış yağanda küçələrdə palçıqdan addım ata bilmədiyimiz yollar asfaltla döşəndi. Bütün standartlara cavab verən sosial obyektlər tikilərək kənd sakinlərinin istifadəsinə verildi. Bu gün nəinki Çeşməbasarda, elə qonşu kəndlərdə də insanların rahatlığı üçün hər cür şərait yaradılıb, kənd camaatı hərtərəfli qayğı ilə əhatə olunub. Fərdi təsərrüfatların genişləndirilməsi üçün lazımi dövlət dəstəyi göstərilir. Bu isə əhalinin işlə təmin olunmasında, məşğulluğun artmasında xüsusi əhəmiyyət kəsb edir.

Mövsüm müəllim kənddə milli adət-ənənələrin yaşadıldığını bildirdi. O dedi ki, kəndimizdə bütün bayramlar xalqımıza xas olan adət-ənənə ilə keçirilir. Diqqətçəkən adətlərimizdən onu qeyd edə bilərəm ki, kənd sakinləri milli bayramlarda el ağsaqqallarını bir alma ilə ziyarət edir, hal-əhval tuturlar. Ona görə tək bir alma ilə görüşə gedilir ki, həm ziyarət edənlərin üzərinə yük düşməsin, həm də israfçılığa yol verilməsin.

Mövsüm Rzayev bildirdi ki, bu kənddə "Zəhmət olmasa, bərəkət olmaz" fikri sakinlərin bir növ yaşayış devizinə çevirilib. Kənd sakinləri dövlətimizin qayğısı nəticəsində hər il əkir, becərir və bol məhsul əldə edirlər. Həmsöhbətim sevinc və eyni zamanda qürur hissi ilə dedi ki, Çeşməbasar ildən-ilə gözəlləşir. Aparılan abadlıq, quruculuq işlərindən kəndimizə də pay düşüb. Bir neçə il bundan əvvəl tikilərək istifadəyə verilən mərasim evi də kənd insanlarının rahat yaşayışına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bu gün qürur hissi ilə deyə bilərəm ki, Çeşməbasar qəsəbə görkəmli kəndə çevrilib.

Kəndin torpaq mülkiyyətçiləri ilə də həmsöhbət olduq. Onlardan biri uzun illərdir, taxılçılıqda yaxşı təcrübə qazanmış Əsgər Rzayevdir. Təsərrüfat adamı bildirdi ki, taxıl qayğı istəyən sahədir. Demək olar ki, məhsul götürəcəyin günə qədər sahəyə qulluq göstərməlisən. Aqrotexniki qaydalara əməl etmək isə əsas şərtdir. Sahələri vaxtında suvarmaq lazımdır ki, bol məhsul götürə biləsən. Su həyat mənbəyidir. Su olan yerdə bolluq da var, bərəkət də. Bir vaxtlar kənddə əkin sahələrini suvarmaq ciddi problemlər sırasında idi. Əkinçilər su növbəsində günlərlə vaxt itirsələr də, əkin sahələrini istədikləri kimi suvara bilmirdilər. Texnikanın çatışmazlığı, zərərvericilərə qarşı mübarizə tədbirlərinin görülməməsi kimi bir çox şəraitsizlik bu sahədə durğunluq yaratmışdı. Artıq son illərdə dövlətimizin qayğısı nəticəsində suvarma kanallarının çəkilməsi, əkin sahələrinin su ilə təmin olunması, sahibkarlara dəstək olaraq subsidiyaların verilməsi bizi daha da həvəsləndirir və məhsulumuzun bərəkəti ildən-ilə artır.

Əsgər Rzayev onu da qeyd etdi ki, kənd adamları burada yerli iqlim şəraitinə uyğun məhsuldar toxum sortlarına, şırım üsulu ilə əkinlərə üstünlük verir, sahələrə ilboyu aqrotexniki qaydalara uyğun qulluq göstərir, zərərvericilərə qarşı mübarizə tədbirləri aparırlar. Nəticədə, sahələrdən bol və sağlam məhsul hasilə gətirilir. Unutmaq olmaz ki, zəhmət varsa, bol məhsul da mütləq olacaqdır.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Rüstəm Əliyevin dediyinə görə, Çeşməbasarda 390 hektar əkilən sahənin hamısı suvarılan torpaqlardır. Başa çatan təsərrüfat ilində kənddə 334 hektara yaxın taxıl sahəsindən bol məhsul tədarük edilib. Çeşməbasarda bağçılıq və tərəvəzçilik də geniş yayılıb. Hazırda həmin sahələrdən məhsul yığımı davam edir. Torpaq mülkiyyətçiləri gələn ilin məhsulu üçün payızlıq taxıl əkininə hazırlıq işləri görürlər.

Rüstəm Əliyev diqqətimizə çatdırdı ki, muxtar respublikamızda geniş vüsət almış müasirlik Çeşməbasara yeni görkəm qazandırıb, onu abad bir yaşayış məntəqəsinə çevirib. Burada sakinlərin problemlərinin vaxtında həlli, onlara göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi üçün əlverişli şərait yaradılıb. Kənd telefonlaşdırılıb, elektrik enerjisinin və təbii qazın fasiləsiz verilməsi təmin edilib.

Çeşməbasar Kənd Mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, sahə polis məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kənd mədəniyyət evi, arxiv və tədbirlər zalı vardır. Mərkəzin birinci mərtəbəsindəki rabitə evində 150 abonentə xidmət edən 384 nömrəlik yeni nəsil ATS quraşdırılıb. Bu da kənd sakinlərinə yüksəkkeyfiyyətli rabitə xidməti, o cümlədən genişzolaqlı internet, İP televiziya və digər elektron xidmətlərin göstərilməsinə imkan verir.

İcra nümayəndəsi onu da qeyd etdi ki, kənd sakinlərinin asudə vaxtlarını səmərəli keçirmələri üçün burada kitabxana və mədəniyyət evi də fəaliyyət göstərir. Kitabxana fondunda 4000-dən çox ədəbiyyat vardır. Yaradılan şərait kitabxana-oxucu münasibətlərinin yüksək səviyyədə qurulmasına imkan verir. Mədəniyyət evində isə işçilər üçün iş otaqları və iclas zalı ayrılıb. Bu da kənddə ictimai-mədəni tədbirlərin keçirilməsində əhəmiyyətli rol oynayır. Bundan əlavə, kənddə həkim ambulatoriyası da vardır. Ambulatoriyada sakinlərə nümunəvi xidmət göstərilir. Bunun üçün səhiyyə məntəqəsində lazımi şərait yaradılıb.

Ambulatoriya ilə tanış olduqdan sonra kənd tam orta məktəbinə də üz tutduq. Yaraşıqlı binası ilə şəhər məktəblərindən geri qalmayan təhsil ocağında bizi məktəbin direktoru Bənurə Babayeva qarşıladı. O bildirdi ki, muxtar respublikada təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi 2013-cü ildə Çeşməbasar kənd tam orta məktəbində yenidənqurma işləri aparılıb. İki mərtəbədən ibarət olan məktəb binası 234 şagird yerlikdir. Burada 3 elektron lövhəli olmaqla, 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, müəllimlər otaqları, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Laboratoriyalar əyani vasitələrlə təmin edilib. İdman zalında idmanın müxtəlif növləri üzrə dərslərin tədrisi və şagirdlərin fiziki hazırlıqlarının artırılması üçün hər cür şərait mövcuddur.

Müsahibim onu da bildirdi ki, yaradılan şərait qarşımıza bir məqsəd qoyur: dövlətimiz üçün savadlı, intellektual, vətənpərvər və dünyagörüşlü gənclər hazırlamaq. Biz də məktəb kollektivi olaraq yaradılan şəraitin müqabilində bu ali məqsəd üçün bütün qüvvəmizlə çalışırıq.

*Bu gün muxtar respublikamızda həyata keçirilən tədbirlər Azərbaycan dövlətinin ən qiymətli sərvəti olan insanların rahat yaşayışına xidmət edir. Biz də Çeşməbasar kəndində bunun əyani şahidi olduq və gördüklərimiz kənddən xoş təəssüratlarla ayrılmağımıza səbəb oldu. Ümumi gəldiyimiz qənaət bundan ibarətdir ki, bu gün muxtar respublikamızın hərtərəfli inkişafını bütün yaşayış məntəqələrinin simasında görmək mümkündür. Elə Çeşməbasar da bu inkişafdan öz payını alaraq müasir Azərbaycan kəndinin bir nümunəsi olduğunu bura yolu düşən hər kəsə göstərir.*

✍ **Pərviz HACILI**

## Seminar-müşavirə keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq Culfa rayonunun Ərəfsə kəndində rayonda fəaliyyət göstərən ailə təsərrüfatı sahiblərinin iştirakı ilə seminar-müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun və Culfa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə İcra Hakimiyyəti aparatının aparıcı məsləhətçisi Rauf Kazımov açıb. O bildirib ki, 2019-cu ilin muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunması bu sahənin inkişafına dövlət qayğısının növbəti təzahürüdür. Culfa rayonunda da ailə təsərrüfatlarının fəaliyyətlərinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Göstərilən hərtərəfli və davamlı dövlət dəstəyindən bəhrələnən ailə təsərrüfatı üzvləri kənd təsərrüfatının bütün sahələri ilə məşğul olmaqla daxili bazarın keyfiyyətli yerli ərzaq məhsulları ilə təminatına öz töhfələrini verirlər.

Vurğulanıb ki, aparılan məqsədyönlü tədbirlər nəticəsində cari ildə Culfa rayonunda ailə təsərrüfatlarının sayı 150-yə çatmaqdadır. Keçirilən festivallarda rayonda ailə təsərrüfatları tərəfindən istehsal edilən məhsullar yüksək səviyyədə nümayiş olunur.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Oqtay Məmmədov, İqtisadiyyat Nazirliyinin əməkdaşı İlham Seyidov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin nümayəndəsi Əli Şərifov və AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı Loğman Bayramov çıxış ediblər. Çıxışlarda ailə təsərrüfatlarında kənd təsərrüfatı bitkilərinin əkin atlaslarına uyğun keçirilməsi və torpaqlardan səmərəli istifadə olunması, meyvətərəvəz, bostan məhsullarının qurudulması və qablaşdırılmasından bəhs olunub.

Ailə təsərrüfatları sahiblərinə Naxçıvan qovurması istehsalının genişləndirilməsi və həmin məhsulların nümayişi, ixracının təşviqi və kataloqunun hazırlanmasının əhəmiyyəti barədə də məlumat verilib.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Alim AĞAYEV**

## Tütünçülüyə maraq artmaqdadır



Muxtar respublikamızda tütünçülüyün inkişafı istiqamətində həyata keçirilən tədbirlər ailə təsərrüfatlarının da bu sahəyə marağını artırıb. Şərur rayonunun Çomaxtur kəndində ailə təsərrüfatçısı Yalçın Rzayev də bu il 2 hektar sahədə tütün becərib. Artıq sahədə ikinci qırım keçirilib.

Ailə təsərrüfatı başçısı deyir ki, dünya səviyyəsində həm keyfiyyətinə, həm də məhsuldarlığına görə sınaqdan çıxarılmış "Virciniya" sortlu tütünün iki qırımından bir tondan artıq quru tütün əldə edib.

Məhsulun qəbulu sahəsində heç bir problem olmadığını vurğulayan Yalçın Rzayev onu da bildirdi ki, istehsal olunan quru tütünün tədarükü və təhvili üçün Kəngərli rayonunun Xıncab kəndində "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyətinin qəbul məntəqəsi fəaliyyət göstərir. Təhvil verilən quru tütün məntəqədə çeşidlənir və ödənişi həyata keçirilir.

Hazırda tütün sahəsində mövsümə uyğun becərmə işləri davam etdirilir və üçüncü qırıma hazırlıq görülür.

Ailə təsərrüfatı gələn il tütün əkin sahəsini 2-3 dəfə artırmağı qarşıya məqsəd qoyub. Təsərrüfatda bağçılıq və arıçılıqla da məşğul olunur.

**Mehman MƏMMƏDOV**

Jurnalist araşdırması

## *"Axırıncı aşırım"*ın çəkilmədiyi ev, xan qızının həsrəti, qara geyimli Nikolay

*Gecə yarıdan keçmişdi... Göy üzü ay işığından aydınlaşmış, gündüzün istisindən sonra ətrafa bir sərinlik çökmüşdü. Xəfif meh əssə də, ətraf sakitlik idi və bu səssizliyi hərdən kənd itlərinin səsi pozurdu...*

Mustafa kişinin gecənin bu vaxtında kənddən çıxmağının bir çox səbəbi vardı. Əsas səbəb isə ailəsinin təhlükəsizliyi idi. Yox, Qarabağlarda hər kəs onun xətrini istəyirdi, çoxlarına əl tutub çörək vermişdi. Ancaq son günlər xəbər yayılmışdı ki, bəs yeni yaranan şura hökuməti var-dövləti olanların hər şeyini əlindən alıb kasıb-kusuba paylamaq adı ilə dövlətin anbarlarına daşıyır, özlərini isə sorğusuz-sualsız "gedər-gəlməzə" göndərirlər. Əmrə tabe olmayanları isə şəhər qubernatorluğunun zindanında günlərlə saxladıqdan sonra "fəhlə-kəndlilərin qənimi", "cümhuriyyət qurucularının yardımçısı", nə bilim "türk əsgərlərinin müdafiəçisi" kimi müxtəlif adlarla damğalayaraq ən yaxşı halda sürgün edirlər. Əslində, Mustafa kişinin şəhərdə yaşayan qohumları ilə bağlı gələn xəbərlər də ürəkaçan deyildi, artıq onlardan bir neçəsi ciddi təqib olunurdu. Hətta həmin qohumlarından da gizlicə xəbər gəlmişdi ki, ən yaxşısı bu aralar ortalıqda görünməməkdir. Buna görə də o, dünəndən bəri hazırlığını görmüş, heç kim xəbər tutmasın deyə, xanımı və iki yeniyetmə oğlunu da götürərək Şahtaxtıdan İrana keçməyi qərarlaşdırmışdı. Məqsədi də bu idi ki, aradan bir az vaxt keçsin, səs-küy yatsın, yenidən öz evinə geri dönsün. Bəs kim idi bu Mustafa kişi?

Təbiətcə sakit, alicənab, hər kəsə əl tutmağı ilə tanınan Mustafa məşhur xan nəslindən idi. Ata-babalarının Naxçıvan şəhərində və ətraf kəndlərdə xeyli torpaq sahələri vardı. Onun özünün də maddi imkanları geniş idi. Qarabağlar və Yurdçu kəndlərində əkin sahələri, qoyun və at sürüləri var idi. El arasında böyük hörməti olan Mustafa xanın işlərində ən yaxın köməkçisi Oruçəli idi. O, Oruçəlini o qədər çox istəyərdi ki, ailə-məişət işlərini də yalnız ona tapşırardı. Mustafa xanın gecə kənddən çıxarkən dörd və yeddi yaşlarında olan Lətifə və Həmidə adlı iki balaca qızını Oruçəlinin yanında qoyması da bir tərəfdən tezliklə geri qayıdacağına inamından, digər tərəfdən isə Oruçəliyə olan böyük etibarından irəli gəlirdi. Evdən çıxarkən: "Oruçəli, qızlarımdan muğayat ol, belə çətin vəziyyətdə onları özümlə apara bilmərəm, tezliklə qayıdacağam", – deməsi isə sonu bəlli olmayan bu yolçuluqda kiçikyaşlı qızlarının həyatını riskə atmamaqdan qaynaqlanırdı. Yaşca daha kiçik olan Lətifə nə qədər atasının ardınca ağlayıb-sızlasa da, Mustafa xan sonuncu dəfə onun üzündən öpərək atına minmiş və yavaş-yavaş Qarabağlardan Şahtaxtına tərəf yol almışdı. Nə Mustafa xan, nə Oruçəli kişi bilməzdilər ki, bu, artıq onların son görüşüdür. Yeni qurulan sovet hökumətinin dəmir sərhədləri bir daha bu ailənin qovuşmasına imkan verməyəcək. Mənsub olduğu kəngərlilər nəslinin bir çox nümayəndələri kimi, Mustafa xanın da qismətinə qürbətdə yaşamaq və dünyasını dəyişmək nəsib olacaq...



Kəngərli rayonunun Qarabağlar kəndində "Daş məhəllə" deyilən bir məhəllə var. Kənddəki məhəllələrin bir çoxu indinin özündə də tayfa, nəsil adları ilə ("Cığallılar", "Alməhəddilər", "Bəydillilər" və sair) adlandırılsa da, kəndin yuxarı hissəsində yerləşən məhəllə el arasında "Daş məhəllə" kimi tanınır. Bu məhəllənin ərazisi daha çox daşlıq ərazidir, ancaq burada söhbət yerin dərinliklərinə qədər işləmiş sal daşlardan gedir. Məsələn, adıçəkilən məhəllədə sal yataqlarının yüz metrədək dərinliyə işlədiyi haqda qeyri-dəqiq məlumatlar var. "Sallıx" adlanan meydan ərazisinin kənarlarında isə el arasında xan həyətləri kimi tanınan həyətlər yerləşir. Doğrudur, hazırda xan həyətlərində yaşayanlar vaxtilə burada yaşamış xan nəslinin davamçıları olmasa da, zənnimizcə, bu məhəllənin "Kəngərlilər" məhəlləsi adlandırılmamasında sovet ideologiyasının təsiri də az rol oynamayıb.

Buradakı xan həyətlərindən biri haqqında bəhs etdiyimiz Mustafa xana məxsus olub. Xanın yaşadığı ev sonrakı dövrlərdə bir az müasirləşdirilsə də, əvvəlki tikinti texnikası qorunub saxlanılıb. Evin zirzəmi hissəsi bir neçə bölümdən ibarətdir və bölmələrin hər biri ovalşəkilli formada, eni iki metr, uzunluğu isə binanın eninə bərabər olub, təxminən, səkkiz-doqquz metrə çatır. Mustafa xanın zamanında olduğu kimi, indinin özündə də bu bölmələrdən müxtəlif qış azuqələrinin, məişət əşyalarının saxlanılmasında istifadə olunur. İkimərtəbəli evin görüntüsü "Axırıncı aşırım" filmindəki Kərbəlayinin evi ilə çox bənzərlik təşkil edir. Yaxşı xatirimdədir, ötən əsrin səksəninci illərində qohum-qonşuda danışardılar ki, bəs "Axırıncı aşırım" filmi burada çəkilib. Filmdə Qəmlo ilə Abasqulu bəyin arasında keçən: "Kimi istəyirsən?!", "Evin kişisini soruşarlar!" – deyə cavab verilən məşhur dialoqdakı səhnə – balkonlu evin görüntüsü, taxıl çuvallarının çıxarıldığı zirzəmilər, həmçinin Kərbəlayinin oğlu Yadullanın qəbirüstü kiçik türbəsi ilə eyni oxşarlıq təşkil edən kənd qəbiristanlığındakı qəbirüstü türbə və üstəgəl, Qarabağlar kəndinin adının çəkilməsi (filmdə Qərbi Azərbaycanın Vedi rayonundakı Qarabağlar kəndindən bəhs olunur) və sair bir çoxlarında belə qənaət yaratmışdı ki, film bu kənddə çəkilib. Halbuki "Axırıncı aşırım" filmi, ümumiyyətlə, Naxçıvanda çəkilməyib və müasir dövrlə müqayisədə informasiya resurslarının kasad olduğu həmin 70-80-ci illərdə, bəlkə də, zarafat xatirinə deyilən bu sözlərə çoxları inanmışdı...

Hazırda Qarabağlar kəndindəki qədim evlərdən sayılan Mustafa xanın evində onun sadiq köməkçisi və sirdaşı olmuş Oruçəli kişinin kiçik oğlu Allahyar Abdullayev yaşayır. 60 yaşlı Allahyar Abdullayev deyir ki, Naxçıvanda sovet hökuməti bərqərar olanda xan, bəy nəslindən olanlara çoxlu haqsızlıqlar edilib. Mustafa xanın ailəsi də bu haqsızlığın qurbanı oldu. Atam Oruçəli kişi deyərdi ki, (Oruçəli Abdullayev 1967-ci ildə dünyasını dəyişib) Mustafa xanın əmisi uşaqları savadlı, oxumuş insanlar idilər. Onlardan bir çoxu yüksək təhsil alaraq hərbçi, müəllim, həkim olublar. Elə Mustafa xan özü də geniş dünyagörüşə malik biri idi və Qarabağlardan gedəndə, təxminən, 40-50 yaşlarında olub.

Burada bir haşiyə çıxaraq bildirim ki, Mustafa xanın Naxçıvan şəhərində yaşamış və əmisi uşaqları dediyi kəngərlilərdən hansı ilə qohumluq dərəcəsini öyrənmək mümkün olmadı. Böyük ehtimalla Qarabağlar kəndində yaşamış bu və digər Kəngərli nəslinin nümayəndələri haqqında bioqrafik məlumatları 1878-ci ildə aparılan əhalinin kameral siyahıya alınmasından öyrənmək mümkündür. Ancaq düşünürük ki, bu, peşəkarlıq və elmi araşdırma tələb edən sahədir və inanırıq ki, tarixçilərimiz nə vaxtsa buna aydınlıq gətirəcəklər.

Oruçəli kişi deyərmiş ki, Mustafa xan təqiblərdən qurtarmaq üçün məcburən İrana gedəndə iki azyaşlı qızını mənə tapşırdı. Mən onlara öz övladlarım kimi baxsam da, bu iki qız uzun illər ata-analarının həsrəti ilə yaşamalı oldular. Sovet hökuməti yeni yarananda o uşaqları bir müddət dövlətdən gizlətdim, sonra isə öz uşaqlarım kimi qeydiyyata aldırdım.

Allahyar Abdullayev deyir ki, Mustafa xanın böyük qızı Həmidə xanım Gəncə şəhərində ailə quraraq ömrünün sonuna kimi orada yaşadı. Lətifə xanımı isə Şərur rayonuna – Cəlilkəndə ərə verdi. Biz həmişə ona "Xan qızı" deyə müraciət edərdik. 1997-ci ildə dünyasını dəyişən Lətifə xanımın övladları hazırda həm Şərur rayonunda, həm də Bakıda yaşayırlar.

Yeri gəlmişkən bir məqamı da vurğulayım ki, Mustafa xanın yaşadığı evin binasında sovet hakimiyyəti qurulandan sonra bir müddət məktəb fəaliyyət göstərir. Sovet ideologiyasına uyğun olaraq o zaman məktəblərdə rus dilinin öyrədilməsi məcburi xarakter daşıyırdı. Hətta Rusiyanın müxtəlif bölgələrindən Naxçıvan şəhəri də daxil olmaqla böyük yaşayış məntəqələrinə pedaqoji kadrlar göndərilirdi. Həmin vaxt bu məktəbə də Nikolay adında bir rus müəllim gəlir. Yerli hökumət qurumlarının da köməyi ilə ev-ev gəzib hər kəsdən uşaqlarını məktəbə qoymaq tələb olunur. Bu prosesə qız uşaqları da cəlb edilir. Nənəm – 2002-ci ildə dünyasını dəyişmiş Nənəxanım Nəcəfova, kənd sakinlərindən Rübabə Məhərrəmova, Gülgəz Hüseynova və digərləri kənd məktəbinin ilk qız şagirdləri olurlar. Nənəm deyirdi ki, o vaxt sinif otaqları indiki kimi deyildi, yəni partalar, stol, stul az idi. Çox vaxt taxtadan düzəldilmiş skamyaya bənzər oturacaqlarda dərs keçirdik. Bir gün gəldik ki, məktəbin divarlarından qara bayraqlar asılıb. Bizə dərs keçən bu Nikolay da başdan-ayağa qara geyinib. O vaxt rəngli paltarlar çox olmasa da, Nikolay bizi də məcbur elədi ki, gedin qara paltar geyinin gəlin. Sonradan səbəbini öyrəndik ki, bəs proletariatın dahi rəhbəri Lenin vəfat edib. Biz də elə fürsət düşmüşkən məktəbdən qaçıb evə gəldik, qara rəngli paltarı bəhanə edib bir daha ora getmədik. Nikolaydan öyrəndiyimiz isə cəmi iki söz oldu: uşqol və uçitel...

✍ **Səbuhi HƏSƏNOV**

## Sosial qayğıya ehtiyacı olan uşaqlara məktəbli forması və dərs ləvazimatları verilib



Muxtar respublikamızda bütün qəbildən olan uşaqlar hər cür dövlət qayğısı ilə əhatə olunur, onların sağlam böyümələri, biliklərə yiyələnmələri, intellektual inkişafı, milli-mənəvi dəyərlərə sadiq vətənpərvər gənc kimi formalaşmaları istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 15 sentyabr – Bilik Günü münasibətilə aztəminatlı, valideynlərini itirmiş, sağlamlıq imkanları məhdud uşaqlara məktəbli forması və dərs ləvazimatları verilib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən tədbirdə Təhsil naziri Rəhman Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası nəticəsində bu kateqoriyadan olan uşaqların təhsilə cəlbi sistemli xarakter alıb. Proqramın icrasından ötən dövr ərzində həmin uşaqlar məktəbəqədər, ümumtəhsil, məktəbdənkənar təhsil müəssisələrinə cəlb ediliblər.

Diqqətə çatdırılıb ki, muxtar respublikada audio və elektron kitabxana xidmətləri, Distant Tədris Mərkəzi yaradılıb, görmə qabiliyyəti məhdud uşaqlar üçün brayl kursları təşkil olunub. Nitq problemləri olan uşaqlar üçün isə Defektoloji bölmə fəaliyyətə başlayıb, multisensorlu, kinekt və əmək terapiyası xidmətləri yaradılıb. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbinin davamlılığı təmin edilib.

Sonda aztəminatlı ailələrdən olan, valideynlərini itirən və ya valideyn himayəsindən məhrum olan məktəbli uşaqlara, sağlamlıq imkanları məhdud şagirdlərə məktəbli geyim formaları, çanta və dərs ləvazimatları verilib.

Qeyd edək ki, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 44, sağlamlıq imkanları məhdud 284, aztəminatlı ailələrin övladlarından isə 42 olmaqla, ümumilikdə, 370 məktəbli təhsil sovqatı ilə sevindirilib. Distant tədrisə cəlb edilən hərəkət qabiliyyəti məhdud uşaqlara isə məktəbli formaları və dərs ləvazimatları evlərində təqdim olunub.

Tədbirdə iştirak edən valideynlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Həmin gün muxtar respublikanın rayonlarında da analoji tədbirlər keçirilib.

**Xəbərlər şöbəsi**

## Sığorta fəaliyyətinin təşkili müzakirə edilib

***Dünən Kəngərli Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.***



Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov tədbiri açaraq Kəngərlidə sığorta sahəsində görülmüş işlər haqqında məlumat verib. Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, bu il iyunun 28-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında agentlik qarşısında muxtar respublikada sığorta işinin təkmilləşdirilməsi, könüllü sığortanın tətbiqi və səyyar xidmətin əhatə dairəsinin genişləndirilməsi, insanların maarifləndirilməsi, sığorta bazarında aqrar sektorun xüsusi çəkisinin artırılması tapşırığı verilib. Həmin tapşırıqların icrası bu gün diqqət mərkəzində saxlanılır.

Qeyd olunub ki, hər bir hüquqi və fiziki şəxs vaxtında sığorta olunmaqla sığorta hadisələri baş verdikdə insan sağlamlığına, daşınmaz əmlaka, müəssisə əmlakına, avtomobillərə, kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə qarşı təminat almış olur.

Baş direktor bildirib ki, Kəngərli rayonu üzrə cari ilin ilk 8 ayında, ümumilikdə, 3297 sığorta müqaviləsi bağlanılıb. Onlardan 685-i avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, 1438-i daşınmaz əmlakın icbari sığortası, 1174-ü isə könüllü sığortalar üzrə müqavilədir. Rayon üzrə sığorta işinin ümumi həcmi ötən ilin 8 ayı ilə müqayisədə 6,3 faiz artıb.

Bununla yanaşı qeyd edilib ki, rayonda sığorta sahəsində görülmüş işlərlə bərabər, bəzi icbari və könüllü sığorta növləri üzrə işlər günün tələbləri səviyyəsində aparılmayıb. Belə ki, rayonda hələ də daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan fiziki şəxslər vardır. Bu məqsədlə Kəngərli rayonunda sakinlər arasında sığorta maarifləndirilməsi işlərinə diqqətin daha da artırılması və ayrı-ayrı sığorta növləri üzrə işlərin genişləndirilməsi zəruridir.

Könüllü sığorta növləri vətəndaşların ümumi yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir. Ona görə də bu sahədə aparılan maarifləndirmə və təşkilati işlər də genişləndirilməlidir.

Tədbirdə Kəngərli Rayon Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Anar Həsənov, Polis Şöbəsinin Dövlət yol patrul qrupunun baş dövlət avtomobil müfəttişi Hüseyn Əliyev görülmüş işlər barəsində məlumat veriblər.

✍ **Əli CABBAROV**

## Tarixin şahidi olan ağac

# Nalbənd

*Uşaqlıq illərimdən ağaclara, yaşıllığa, gülə, çiçəyə xüsusi sevgim olub və hər zaman bu təbiət gözəlliklərinə valeh olmuşam. Kəndə gedəndə ağacların kölgəsində olmaq, ya da ki onun əlçatmaz budaqlarına çıxıb oradan aşağını seyr etməyi çox sevərdim. Amma hansı ağaca yaxın gedə bilsəm də, lap qonşuluğumuzda yerləşən məscidin qarşısındakı ağacın budağına əl vura bilməzdim. Kənddəki yaşlı insanlar buna imkan verməzdilər. Çünki el arasında belə rəvayət gəzirdi ki, onun kölgəsində nə zamansa peyğəmbər yatıb.*

Yüz illərdir, bu rəvayət nalbənd ağacına "toxunmazlıq möhürü" vurub, onu müqəddəsləşdirib. Böyüklər deyirdilər ki, bu ağaca toxunmaq günahdı. Ağac məscidin qarşısında, sanki ona keşik çəkir. Hər səhər və axşamüstü olanda kəndin yaşlı insanları bu ağacın kölgəsinə yığılır. Kənd sakinlərindən Həşim baba deyir ki, həmin ağac uzun illərdir ki, beləcə, burada göylərə ucalaraq insanlara xoş sərinlik, kölgə bəxş edir. 300-350 il, hətta bundan da artıq yaşaya bilən nalbənd ağacı yayın qızmar istisinə, quraqlığa, borana, güclü küləyə, çovğuna, 40-45 dərəcə şaxtaya dözümlüdür. Çətirinin böyüklüyünə, budaqlarının sıxlığına, gözəl görkəminə görə nalbəndi əvəz edən ikinci ağac çətin ki tapılar. Bu ağacın budaqları qurusa, sınıb düşsə də, onu götürüb bir kənara qoyarlar. Ona daş atmaq, budağını əymək, yarpağını belə, qırmaq günah sayılır. Təbii yolla ömrünü başa vurmuş, qurumuş oduncağından belə, istifadə etməzlər, onu yandırmazlar. Ancaq o qədər möhkəm, o qədər davamlıdır ki, onun çürüyüb torpağa qarışması üçün uzun illər gərəkdir. Bu ağac və onların bitdiyi yerlər, insanlar tərəfindən müqəddəs hesab olunur. Elə ona görə də kəndlərdəki qədim məscidlərin çoxu nalbənd ağacının yaxınlığında inşa edilib. Bizim kəndə qonşu Qışlaqabbasda da məscid nalbəndin yaxınlığında yerləşir.

Həşim baba deyir ki, bunları yaşadıb zamandan-zamana ötürən, "ölməkdən" qoruyan xalq inamı, xalq etiqadı olub. Dədə-babadan nalbənd ağaclarına xüsusi qayğı ilə yanaşırlar, əhd edənlər bu müqəddəs ağacın budaqlarına nəzir deyib yaylıq, parça bağlayırlar. Naxçıvan diyarında ona "nalbənd", həm də "narbənd" ağacı deyənlər vardır. Birinci ad rəvayətə görə onunla əlaqədardır ki, nalbənd, yəni minik, qoşqu və yük heyvanlarını nallayan usta, adətən, həmin heyvanları qızmar aylarda bu ağacın geniş və sərin kölgəsində nallayarmış.



Baba onu da deyir ki, uzun illər, qərinələr, əsrlərboyu toxunulmaz olan bu ağaclar da bir vaxtlar insanların laqeyd münasibətinə tuş gəlib. Sovetlər dönəmində milli adət-ənənələrimizə, inanclarımıza qənim kəsilənlər həmin ağacları da kəsib-doğramağa çalışırdılar. Elə o zamanlarda kənd camaatı əlbir olub bu ağacın kəsilməyinə imkan vermədik...



Bu gözəl nadir ağac calaq götürmür, onun nə toxumu, nə də tingi olur. Xalq içində elə müdriklər tapıldı ki, nalbənd şivlərini əldə edib həyətlərindəki qaraağaclara calaq vurdular. Həşim baba deyir ki, bir vaxtlar rayonumuzun Mahmudkəndində Hüseyn kişinin (ona el arasında "Nalbənd Hüseyn" deyirdilər) calaq üsulu ilə yetişdirdiyi nalbənd tinglərindən ərsəyə gətirirdi. Ağaclar nəinki muxtar respublikamızın ərazisində, hətta Azərbaycanın digər rayonlarında, iri şəhərlərində belə, öz görkəmi, yaraşığı ilə göz oxşayırdı. Hüseyn kişi qapısına peyvənd elədiyi nalbənd tingləri üçün gələnləri boş qaytarmaz, həm də heç kimdən heç nə ummazdı. Bir istəyi var idi ki, kökü kəsilməkdə olan nalbənd yenidən artsın, çoxalsın, ölkəmizin hər tərəfinə yayılsın.

Həşim babanın bu sözlərindən sonra Mahmudkəndinə yollanır və Hüseyn kişinin bu nəcib əməlinin davamçısı, nəvəsi Səyyad Əliyevlə həmsöhbət oluruq. Öyrənirik ki, o, babasından qalma bu işi indi də davam etdirir. Yazda qaraağaca nalbəndən calaq vurur və onun kimi nadir bir ağacı yox olmaq təhlükəsindən qoruyur. O deyir ki, uşaqlıqda bu işi babamdan öyrənmişəm. Babamın şöhrəti Azərbaycandan kənara da yayılmışdı, hətta 1985-ci ildə Bolqarıstandan babama məktub gəlmişdi. Təbiətsevər bir insan öz məktubunda nalbənd ağacından onun da həyətində olmasını arzulayır və babamdan xahiş edirdi ki, ona bu ağacdan yollasın. Uzun illər ömrünün çoxunu təmənnasız olaraq nalbənd ağaclarının çoxaldılmasına həsr edən babam əlinin zəhməti ilə yüzlərlə nalbənd yetişdirmişdi. Yaxşı yadımdadır, ötən əsrin 90-cı illərinin qarlı, şaxtalı çətin vaxtlarında bu ağaclar da baltaya tuş gəldi. Əslində, bunu edənləri qınamaq da istəmirəm. Çünki evdə körpəsi, qocası olanlar var idi. Axı qazın, işığın kəsildiyi bir vaxta başqa əlacı ki, o ağır illər artıq arxada qalıb. Təbiətimizə, yaşıllıqlara həm dövlət tərəfindən qayğı göstərilir, həm də insanların münasibəti dəyişib. İndi çox yerdə babamın calaq üsulu ilə yetişdirdiyi nalbənd ağacları gözəlliyi ilə göz oxşayır. O vaxtlar babamın bu nəcib əməli hamı tərəfindən alqışlanırdı. Elə gün olmazdı ki, qapımızdan bir adam əliboş qayıtsın. O, hamıya nalbənd tingi verər, "Aparın, yaxşı baxın", – deyərdi. Sanki əziz övladını kimə isə əmanət edərdi. Yaxşı yadımdadır, həmin illərdə mərhum şairimiz Vaqif Məmmədov da babamın bu nəcib əməlindən öz şeirində bəhs etmişdi:

*Bir qoca yaşayır Şərur elində,*
*Qəlbi saz, ağsaqqal kişidir, bilin.*
*Qayçısı, bıçağı hər vaxt əlində,*
*Nalbənd peyvəndləmək işidir, bilin…*

Atam da bu işi yaxşı bilirdi. Elə babamla bərabər nalbəndin çoxaldılması qaydalarını bizə öyrətməyə çalışırdı. İndi onlardan miras qalan bu işi mən öz öhdəmə götürmüşəm. Çox arzu edirəm ki, həmin ağacların kökü kəsilməsin.

Onunla həmsöhbət olarkən "Azərbaycanda elmin inkişafı və regional problemlər" kitabında Əli Məmmədovun "Nalbənd ağacı Naxçıvanın gözəl bəzək bitkisidir" məqaləsində yazdıqlarını xatırlayıram: "Nalbənd ağacının Naxçıvan Muxtar Respublikası üçün gözəl dekorativ bitki olduğunu nəzərə alaraq biz 1972-ci ildən başlayaraq bu bitkinin Naxçıvan Dövlət Universitetinin ərazisində artırılıb becərilməsi üzrə müəyyən təcrübə və müşahidə işləri aparmışıq. Nalbənd ağacını qaraağac bitkisinə calaq etməklə artırmaq olur. Qaraağac bitkisi toxumları, kök və kötük pöhrələri ilə artır. Nalbənd ağacı yetişdirmək üçün kök pöhrələrindən əmələ gələn cavan qaraağac tinglərini bir sahədə əkməklə biz cırlardan ibarət tinglik yaratdıq. Ağacın latın dilindəki "Ulmus densa" adı "sıxçətir qaraağac" mənasını ifadə edir. "Azərbaycan florası" kitabının üçüncü cildində də (1952-ci il) növün adı nalbənd ağacı kimi verilmişdir".

Həmsöhbətim Səyyad Əliyev nalbənd ağacının calaq edilib artırılması ilə bağlı təcrübəsini bizimlə bölüşdükcə tanınmış akademik Həsən Əliyevin hələ 1982-ci ildə çap etdirdiyi "Həyəcan təbili" kitabında yazdığı bu sətirləri də xatırlayıram: "Bəzək ağaclarından nalbənd, demək olar ki, tamamilə məhv olmuşdur. Bu bəzək ağacına SSRİ ərazisində yalnız Naxçıvan Muxtar Respublikasında rast gəlirdik". Və sevinc hissi, fəxrlə fikirləşirəm ki, bir vaxtlar görkəmli akademikin böyük həyəcan və təəssüflə dediyi bu sözlərin əksinə olaraq vaxtilə tanınmış realist rəssam Bəhruz Kəngərlinin əsərlərində də təsvir edilən bu nadir ağacın – nalbəndin sayının artırılması, qorunması qayğısına qalanlarımız var. Bu isə o deməkdir ki, doğma diyarımızın nadir təbiəti etibarlı əllərdədir.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Məşqçilik kursu keçirilir



Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən orta məktəblərdə çalışan fiziki tərbiyə müəllimlərinin futbol biliyinin artırılması məqsədilə "D" kateqoriyalı məşqçilik kursuna start verilib.

Bakıdan gələn futbol mütəxəssisləri Cahangir Həsənzadə və İlham Əzizzadənin iştirakı ilə keçirilən bu məşğələyə 29 müəllim qatılıb.

Futbolda təzyiqlər, məqsədlər, qərar vermək, sağlam həyat tərzi, metodoloji üsullar, məktəbdə futbol oyununun prinsipləri ilə bağlı nəzəri və praktik məşğələlər keçirilib. Həmçinin məktəblilərlə davranış, oyunçuların bacarıqlarının inkişafı, futbol texnikası, koordinasiya haqqında ətraflı məlumat verilib.

Bununla yanaşı, müəyyən olunmuş qruplar şəklində məşqçilərə uşaq futbolu ilə bağlı mövzular təqdim olunub. Onlar isə müvafiq mövzular üzrə fikir mübadiləsi aparıblar.

Bu gün yekunlaşacaq kursun sonunda iştirakçılara sertifikatlar veriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin avqust ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 753080 | 75308 | 75324 | 100,0 |
| 2. | Naxçıvan şəhəri | 1037303 | 103730 | 103742 | 100,0 |
| 3. | Kəngərli rayonu | 268645 | 26864 | 26867 | 100,0 |
| 4. | Babək rayonu | 776442 | 77644 | 77651 | 100,0 |
| 5. | Ordubad rayonu | 355497 | 35550 | 35553 | 100,0 |
| 6. | Culfa rayonu | 348785 | 34878 | 34881 | 100,0 |
| 7. | Şahbuz rayonu | 238216 | 23822 | 23823 | 100,0 |
| 8. | Sədərək rayonu | 81917 | 8192 | 8192 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12388302 | 1881176 | 1891980 | 100,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16248187** | **2267164** | **2278013** | **100,5** |

### İtmişdir

Naxçıvan şəhəri, 35-ci məhəllə, A.Zamanov küçəsi, ev 60A ünvanında yaşayan Hacıyev İsmayıl Muxtar oğlunun adına olan 14712 inventar nömrəli texniki pasportun 104013004578-10301 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Maxta kəndində yaşamış Seyidova Tərlan Bəhman qızının adına olan JN-173A inventar nömrəli, 10216018 kodlu şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Əhmədov Pərviz Budaq oğlunun adına olan 8617 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Mirzəyev İsa Şükür oğlunun adına olan 014853 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 5542 | 410,1 | 410,1 | 100,0 |
| 2. | Şərur rayonu | 2849 | 202,3 | 202,3 | 100,0 |
| 3. | Babək rayonu | 2539 | 180,3 | 180,3 | 100,0 |
| 4. | Ordubad rayonu | 1513 | 107,4 | 107,4 | 100,0 |
| 5. | Culfa rayonu | 1304 | 92,6 | 92,6 | 100,0 |
| 6. | Kəngərli rayonu | 735 | 52,2 | 52,2 | 100,0 |
| 7. | Şahbuz rayonu | 275 | 19,5 | 19,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 397 | 28,1 | 28,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 29009 | 2610,8 | 2611,4 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **44163** | **3703,3** | **3703,9** | **100,0** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 44 milyon 163 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 703 min 300 manat olmuş, cəmi 3 milyon 703 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerji dəyərinin 100,0 faizini təşkil edir.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 596